# “Təfəkkür” Universitetində “məzun günü” keçirildi.



Elm və Təhsil Mərkəzi “Təfəkkür” Universitetində “məzun günü” ilə bağlı keçirilən tədbir Dövlət himninin səslənməsi ilə başladı. Sonra Universitetin prorektoru, professor İlham Musayev çıxış edərək bu əlamətdar gün münasibətilə universitetin rəhbərliyi adından məzunları təbrik etdi, onlara gələcək fəaliyyətlərində böyük uğurlar və nailiyyətlər arzuladı.



Bir vaxtlar “Təfəkkür” universitetinin tələbəsi olmuş gənclərin bu gün Respublikanın ictimai-siyasi həyatında böyük hörmət qazandıqlarından, elm sahəsindəki uğurlarından danışan professor İlham Musayev yeni məzunların universitetdə aldıqları bilikləri həyatda bacarıqla tətbiq etməklə ölkəmizin inkişafına yeni töhfələr verəcəklərinə əmin olduğunu bildirdi.

Məzunları təbrik edən universitetin “Tədris-metodiki” idarəsinin rəisi Arzu Axundova Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən təsdiq olunmuş dövlət proqramlarının uğurlu icrası nəticəsində gənclərin məşğulluğunun artırılması istiqamətində mühüm addımlar atıldığını, yeni iş yerlərinin açıldığını vurğuladı və bugünkü məzunların tezliklə özlərinə layiq işlə təmin olunacaqlarına əminliyini bildirdi.

Tədbirdə çıxış edən məzunlar və onların valideynləri yüksək keyfiyyətli təhsil almalarına yaradılan şəraitə görə universitet rəhbərliyinə minnətdarlıqlarını bildirdilər. Universitetin adını daim uca tutacaqlarını vəd etdilər.

Tədbir ədəbi-bədii kompozisiya ilə davam etdi.





